# İnzibati və tədris-köməkçi heyətin işə qəbulu müsabiqəsində iştirak etmək istəyən namizədlər tərəfindən elektron müraciətin doldurulmasına dair

## Təlimat

1. İnzibati və tədris-köməkçi heyətin işə qəbulu müsabiqəsi üçün "Elektron müraciət" etməzdən əvvəl hər bir namizəd işə qəbulun aparıldığı vəzifələr üzrə tələb olunan biliklər , vəzifələr üzrə qoyulan tələblər , vakant yerlər haqqında məlumatlarla tanış olmalıdır.

2. Müsabiqədə iştirak etmək üçün musabiqe.baku.edu.az internet saytında "Müraciət et" bölməsi sıxılmalıdır. Açılan yeni pəncərədə müvafiq bölmələr üzrə tələb olunan bütün məlumatlar daxil edilməlidir.

3. "Şəxsi məlumatlar" bölməsində namizəd özü haqqında tələb olunan məlumatları və hansı vəzifə üzrə müsabiqədə iştirak etmək istədiyini qeyd edərək "Növbəti" düyməsi vasitəsi ilə "Təhsil haqqında" bölməsinə keçməlidir.

4. "Təhsil haqqında" bölməsində istifadəçi təhsil aldığı orta ixtisas və ya ali təhsil müəssisəsinin adı, daxil olduğu və bitirdiyi tarix, təhsil pilləsi və səviyyəsi, ixtisas, təhsil haqqında dövlət sənədinin seriya və nömrəsi barədə məlumatları müvafiq xanalara daxil edir. İstifadəçi "Əlavə et" düyməsinin üzərinə basmaqla digər təhsili haqqında məlumatları da daxil edə bilər. Eyni zamanda əlavə etdiyi təhsil haqqında məlumatları "Sil" düyməsinin üzərinə basmaqla silə bilər.

Həmçinin bu bölmədə namizədin təltifləri, dərslik müəllifliyi, tədris vəsaiti müəllifliyi və elmi dərəcələr ilə bağlı zəruri məlumatları daxil edilərək "Növbəti" düyməsinin üzərindən basılmalı və "Əmək fəaliyyəti haqqında" bölməsinə keçilməlidir.

5. "Əmək fəaliyyəti haqqında" bölməsində namizədin iş təcrübəsinin mövcudluğu istənilir. Əvvəl iş təcrübəsi olan namizədlər bu bölmədə ümumi iş stajını, sonuncu işlədiyi müəssisəni, həmin müəssisədəki vəzifəsini və işlədiyi müddəti qeyd etməlidir.

İş təcrübəsi yoxdursa müvafiq xana işarələnməli və birbaşa olaraq sonuncu "Təsdiq" bölməsinə keçilməlidir.

6. "Təsdiq" bölməsində namizədin müsabiqədə iştirak etmək üçün daxil etdiyi bütün məlumatlar təqdim olunur. Həmin məlumatların düzgünlüyü yoxlanıldıqdan sonra namizəd "Təsdiq et" düyməsi vasitəsi ilə müraciətini təsdiq etməlidir.